Xalq qəzeti.- 2019.- 1 dekabr. S. 7.

Yeni kitablar

# Azərbaycan tarixşünaslığında gender mövzusuna həsr olunmuş sanballı tədqiqat

***Naxçıvan Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının dosenti, tarix üzrə elmlər doktoru Sevinc Abbasovanın yeni işıq üzü görmüş “Azərbaycan Respublikasının ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafında qadınların rolu (1970--2015-ci illər)” adlı kitabında müstəqillik dövrü Azərbaycan tarixşünaslığı üçün aktuallıq və önəm kəsb edən bir mövzu sistemli və kompleks şəkildə tədqiq edilmişdir.***




Ölkəmizin ən yeni tarixinin digər tədqiqat istiqamətləri ilə yanaşı, Azərbaycan Respublikasında qadın siyasətinin və qadın hərəkatının müxtəlif aspektlərinin, gender münasibətlərində transformasiya proseslərinin araşdırılması ciddi elmi və ictimai maraq doğurur. Uzun illər boyu unudulmuş, üzərindən sükutla keçilmiş qadınların Azərbaycan tarixində layiq olduqları yerlərinin bərpa edilməsi, onların tarixinin gender bərabərliyi nöqteyi-nəzərindən yenidən yazılması, tarixin müxtəlif dönəmlərində onların ictimai status və mövqelərinin dəyişməsinin öyrənilməsi baxımından yeni nəşr zəngin və gərəkli bir qaynaqdır.

Kitabda modernləşmə prosesini yaşayan ölkəmizdə hüquqi dövlət, demokratik cəmiyyət, yeni iqtisadi münasibətlər sistemi quruculuğunun davam etdiyi bir şəraitdə qadınların cəmiyyətdəki rolu əhatəli araşdırılır, faydalı elmi-təcrübi nəticələr söylənir. Bu gün Azərbaycanın dövlətçilik siyasətində gender məsələlərinin daim diqqətdə saxlanılması prioritet təşkil edən həqiqətdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev dövlət quruculuğunda qadınların rolunu yüksək qiymətləndirdiyi kimi, qlobal dünyanın meyarlarından biri olmaqla, yeni cəmiyyət quruculuğunda qadın faktorundan faydalanmağı da daim vacib və gərəkli saymışdır. Bu mənada müəllifin vahid bir problemin Azərbaycan tarixinin hər bir azərbaycanlı üçün mühüm əhəmiyyət kəsb edən mərhələsində, yəni ulu öndər Heydər Əliyev epoxasında öyrənməsi təqdirəlayiqdir.

Dərs vəsaiti “Giriş”, 4 fəsil, “Nəticə” və istifadə olunmuş ədəbiyyatların siyahısından ibarətdir. Elmi ümumiləşdirmələrin aparıldığı “Giriş” hissə ilə tanışlıq müəllif və əsər haqqında kifayət qədər təsəvvür yaradır. Aydın olur ki, dosent Sevinc Abbasova bütün varlığı ilə ulu öndər Heydər Əliyev ideyalarına, təliminə, dövlətçilik prinsiplərinə bağlı tarixşünasdır və onun üçün bu araşdırma həm mövzunu, həm də ümummilli liderin dövlətçilik təlimində gender problemini dərindən öyrənmək baxımından aktualdır.

Nəşrin müsbət cəhətlərindən biri də vahid problemin sistem halında öyrənilməsidir və bunu fəsillər arasındakı ciddi bağlılıq tamamlayır. Müəllif problemin tam həlli istiqamətində əvvəldən sona doğru irəliləməyi məqsədəuyğun saymışdır. Bu səbəbdən kitabın birinci fəslindəki təhlillər “Azərbaycan qadını 1970--1990-cı illərin əvvəllərində” başlığı altında aparılmış 2 yarımfəsildən ibarətdir. “1970-1980-ci illərin ilk yarısında Azərbaycan dövlət qadın siyasəti və qadınların sosial tərəqqisi” adlı I yarımfəsildə müəllif əvvəlcə öyrəndiyi tarixi mərhələnin xarakterik cəhətlərini aydınlaşdırmışdır.

Tarixçi alim 1969-cu ildə Heydər Əliyevin birinci dəfə Azərbaycanda siyasi hakimiyyətə gəlişindən sonra qadın siyasətinin daha qətiyyətlə gündəmə gətirildiyini və ölkə tarixində o vaxta qədər qadınların sosial tərəqqisində görünməmiş nailiyyətlərin əldə edilməsini təkzibedilməz faktlarla təsdiqləmişdir. Müəllif apardığı təhlillərdə “Sözügedən dövrdə ictimai həyatın elə bir sferası yox idi ki, orada qadınlarımız ciddi irəliləyişlərə nail olmasın” mövqeyindən çıxış etmişdir. Əslində, Sevinc Abbasovanın dəyərlədirmələri belə bir obyektiv həqiqəti yada salır ki, Azərbaycan qadını 1970–80-ci illərdə istər əmək, istər elm və texnika, istər mədəni-maarif, istərsə də idarəetmə sahələrində qazandığı nailiyyətlərə görə dahi şəxsiyyət Heydər Əliyevə mənəvi borcunu dönə-dönə xatırlamalıdır.

Müəllif tariximizin 1980-ci illərin sonlarından 1990-cı illərin əvvəllərinə qədərki dövrünü üç mərhələyə bölmüş, hər bir mərhələnin özünəməxsus cəhətlərini aydınlaşdırmaqla bərabər, o dövrdə Azərbaycan qadının nə kimi çətinliklərdən keçdiyinin dəqiqliklə təsvirini verə bilmiş, əslində, qadın probleminin tədqiqi fonunda Azərbaycan tarixinin yeni, müəyyən qədər deqredasiyaları ilə fərqlənən səhifələrini yazmışdır.

Kitabın “Azərbaycan Respublikasında dövlət qadın siyasəti” adlı II fəsli də yeni tarixi dövrdə qadın və cəmiyyət probleminin elmi əsaslarla öyrənilməsi baxımından maraq doğurur. Yarımfəsillərdə müəllif belə bir baxış bucağı nümayiş etdirir ki, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasında qadın siyasəti daim dövlətin diqqətində olmuş, məhz dünyaşöhrəli dahinin səyləri ilə ölkədə sabitlik əldə edildikdən sonra hüquqi dövlətin Azərbaycan modeli yaradılmış və bu yeni dövlət modelində qadın və cəmiyyət probleminin prioritetliyi daim nəzərə alınmışdır.

Kitabının bütün fəsillərinin müvəffəqiyyətlə nəticələnməsini şərtləndirən əsas amillərdən biri tarixi-müqayisəli və statistik təhlil metodlarından yerli-yerində və düzgün istifadə edilməsidir. “Azərbaycanın ictimai-siyasi həyatında qadınların iştirakı” adlı IV fəsldəki təhlillər də tamamilə məntiqi və mükəmməl təsir bağışlayır. Dosent S.Abbasova Azərbaycan Respublikasında dövlət qadın siyasətinin bütün yönləri ilə dəyərləndirilməsini ona görə vacib bilmişdir ki, ölkədə dövlət qadın siyasəti mükəmməl olmadan sosial-iqtisadi və mədəni həyatımızda qadınların son dərəcədə ciddi uğurlara imza atmaları qeyri-mümkün idi.

“Azərbaycanda qadın hərəkatının yeni inkişaf mərhələsi (2004--2015-ci illər)” adlı yarımfəsildə də müəllif gender bərabərliyi ilə bağlı Heydər Əliyev siyasətinin yeni tarixi mərhələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən davam və inkişaf etdirilməsindən daha geniş şəkildə söz açmış, bu sahədə özünü göstərən keyfiyyət dəyişikliklərinin hansı zəmin əsasında gerçəkləşməsi məsələsinə aydınlıq gətirmişdir.

Zəngin faktlar əsasında yazılmış, elmi yeniliyi, nəzəri və təcrübi əhəmiyyəti ilə diqqəti cəlb edən bu kitab oxucular üçün qiymətli mənbə, tarix elminə dəyərli töhfə kimi qiymətləndirilir.

***Rəna MİRZƏZADƏ,***
***Azərbaycan Milli Elmlər Akademiyasının Qadınlar Şurasının sədri, fəlsəfə elmləri doktoru, professor***